BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

***№2 Sosial-siyasi elmlər seriyası 2010***

# AZƏRBAYCANDA SIĞORTA BAZARININ İNKİŞAF İSTİQAMƏTLƏRİNİN STATİSTİK TƏHLİLİ

**N.S.ƏYYUBOVA, N.R.CƏLİLOVA**
***Bakı Dövlət Universiteti***
***neyyubova@mail.ru***

*Azərbaycan sığorta bazarının gələcək inkişafı üçün sığortanın icbari növləri üzrə qanunvericiliyin təkmilləşdirilməsi, sığorta şirkətləri üçün ixtisaslı aktuarilərin hazırlanmasının təmin edilməsi, sığorta məsələlərində əhalinin maarifləndirilməsinin, eləcə də sığorta xidmətləri üzrə istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi böyük əhəmiyyət kəsb edir.*

*Məqalədə müəlliflər Azərbaycanda sığorta bazarının bugünkü durumunu qiymətləndirmək və perspektiv inkişaf istiqamətlərini təhlil etmək məqsədi ilə bu sahənin hüquqi-normativ bazasının araşdırılması və rəsmi qurumların məlumatları əsasında statistik təhlilin aparılması məsələlərinə baxmışlar.*

Sığorta iqtisadi anlayış olmaqla yanaşı iqtisadi fəaliyyət sahələrinin və cəmiyyətin inkişafında mühüm rol oynayır. Sığorta istehsal prosesində baş verən maddi itkilərin əvəzinin ödənilməsi ilə əlaqədardır. Dünya təsərrüfat təcrübəsi göstərir ki, xüsusi fondlar hesabına yaradılan sığorta əmtəə istehsalçılarının, vətəndaşların sosial təminatının, dövlət iqtisadi mənafelərinin sığorta vasitəsilə müdafiəsini təmin etməklə bərabər həm də təkrar istehsal prosesini fasiləsiz surətdə tənzimləyir.

Milli sığorta bazarı Azərbaycanda 1992-ci ilin əvvəlindən formalaşmağa başladı. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanın tarixində ilk dəfə olaraq 1993-cü ildə «Sığorta haqqında» Azərbaycan Respublikası Qanununu qəbul etdi. Bu qanunun tələblərinin icra edilməsi üçün sığorta işinin inkişafına təkan verən müxtəlif normativ hüquqi sənədlər hazırlandı ki, bu da sığorta xidmətləri həcminin artırılmasına, sığorta təşkilatlarının maliyyə sabitliyinin möhkəmləndirilməsinə təkan verdi.

Keçid mərhələsində respublikada «Milli Bank»ın yarandığı, müstəqil xarici iqtisadi siyasətin yer aldığı, Milli valyutanın tətbiq edildiyi bir vaxtda sığorta bazarının inkişafı daha da aktuallaşdı və yerli xüsusiyyətlər nəzərə alınmaqla sığorta işinin inkişafında kommersiya siyasətinin yeridilməsi imkanı yarandı [2].

Sığorta bazarının inkişafı üçün mülkiyyət formasından asılı olmayaraq müəssisə və təşkilatlara, həmçinin əhaliyə göstərilən sığorta xidmətlərinin həcminin artırılmasında bütün sığorta təşkilatları üçün eyni şərait yaradılmalı, sığortalılar qarşısında öhdəliklərin yerinə yetirilməsi, sığortalıların və sığorta bazarının peşəkar iştirakçılarının, habelə dövlətin hüquq və mənafelərinin qorunması təmin edilməlidir.

Sığorta bazarının yaradılmasında əsas məqsəd respublikada sığorta işinin inkişafı üçün maliyyə-iqtisadi, normativ hüquqi baza yaratmaqla, iqtisadi sabitliyin və milli iqtisadi təhlükəsizliyin mühüm amillərindən biri kimi sığortanın rolunun yüksəldilməsi, sığorta bazarının, sığorta təşkilatlarının mövcud qanunvericiliyin tələblərinə əməl edilməsi üzrə fəaliyyəti üzərində dövlət nəzarəti sisteminin gücləndirilməsinin təmin edilməsidir.

Müstəqil Azərbaycan tarixinin ikinci mərhələsi olan və iqtisadi dirçəlişin başlanğıcı kimi qiymətləndirilən 1994-cü ildən sonrakı dövr sığorta bazarının təkamülü ilə səciyyələnir. Məhz həmin ildən başlayaraq dünyanın aparıcı neft şirkətləri ilə respublikada neft-qaz layihələrinə 60 mlrd. ABŞ dolları məbləğində investisiya qoyuluşlarını nəzərdə tutan 21 müqavilənin bağlanması Azərbaycanın sığorta bazarının inkişafına güclü təkan verdi. Böyük məbləğli investisiyalar, işlərin aparılmasının beynəlxalq standartları, çoxlu sayda podratçıların ölkəmizə gəlişi sığorta xidmətlərinə olan tələbin ciddi şəkildə artmasına səbəb oldu. Neft sektoruna sərmayələr qoyulduqca, iri şirkətlər ölkəyə axışdıqca, həmin münasibətlərə müxtəlif xidmətlər göstərən subpodrat şirkətlər yaranmağa, o cümlədən sığorta sektoru da inkişaf etməyə başladı. Neft sektoruna xidmət etmək üçün beynəlxalq sığorta şirkətlərinin və sığorta broker təşkilatlarının təmsilçiləri Azərbaycana gəldilər. Bununla yanaşı, rəqabətə qatılan milli sığorta şirkətləri də beynəlxalq təcrübə qazanmağa və rəqabətə davam gətirmək üçün xidmət səviyyələrini və kapitallarını artırmağa başladılar.

Bu dövrdən etibarən sığorta biznesi də çiçəklənmə və inkişaf mərhələsinə qədəm qoydu. Həmin dövrdən başlayaraq Azərbaycanda sığorta qanunvericiliyinin təkmilləşdirilməsi məsələsinə ciddi diqqət yetirildi və 15-ə yaxın qanun və normativ-hüquqi akt qəbul edildi [8]:

- "Nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında" Qanun (1996-cı il);
- "Sosial sığorta haqqında" Qanun (1997-ci il);
- "Hərbi qulluqçuların dövlət icbari sığortası haqqında" Qanun (1997-ci il);
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sığorta şirkətlərinin minimum nizamnamə kapitalının müəyyən edilməsi haqqında" 1999-cu il tarixli Qərarı. Bu qərara görə sığorta şirkətlərinin nizamnamə kapitalının minimum həddi 200 milyon manat müəyyən edildi;
- "Sığorta haqqında" Qanun (1999-cu il) [6]. Bu Qanunun qəbul edilməsi ilə 1993- cü ildə qəbul edilən "Sığorta haqqında" Qanun qüvvədən düşdü;
- "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanun (1999-cu il);
- "Tibbi sığorta haqqında" Qanun (1999-cu il);
- Mülki Məcəllə (2000-ci il). Bu Məcəllənin xüsusi bir fəsli sığortaya həsr olunmuşdur;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Sığorta şirkətlərinin minimum nizamnamə kapitalının müəyyən edilməsi haqqında" 2001-ci il tarixli Qərarı. Bu Qərara uyğun olaraq sığorta şirkətlərinin nizamnamə kapitalının minimum həddi 2 milyard manat, təkrar sığorta şirkətlərinin nizamnamə kapitalının minimum məbləği 5 milyard manat müəyyən edildi.
- "İcbari ekoloji sığorta haqqında" Qanun (2002-ci il);
- "Dövlət qulluqçularının icbari sığortası haqqında" Qanun (2002-ci il);
- Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" (2002-ci il);

- "Sərnişinlərin icbari sığortası haqqında" Qanun (2003-cü il);
- "Yanğından icbari sığorta haqqında" Qanun (2004-cü il);
- "Sığorta fəaliyyəti haqqında" Qanun (2007-ci il) [9]. Bu Qanun qəbul edildikdən sonra 1999-cu ildə qəbul edilmiş "Sığorta haqqında" Qanun qüvvədən düşdü. 2008-ci il 15 mart tarixindən qüvvəyə minən yeni Qanun sığorta fəaliyyətinin lisenziyalaşdırılmasının yeni qaydalarını, sığorta şirkətlərinin yaradılması və ləğvi ilə bağlı bütün mərhələləri, şirkətlərdə yoxlamaların aparılmasını, korporativ idarəetmə və sığorta şirkətlərinin maliyyə sabitliyi üzrə tələbləri, şirkətlərin rəhbər işçilərinin attestasiyasının keçirilməsini və s. müəyyən edir. Yaxın zamanlarda bu qanuna uyğun olaraq sığorta şirkətlərinə olan yeni prudensial normativ tələblərin təsdiq edilməsi prosesi yekunlaşacaqdır. Qeyd etmək lazımdır ki, bu Qanun Beynəlxalq Sığorta Nəzarətçiləri Assosiasiyasının (BSNA) "əsas prinsiplərinə" uyğun olaraq işlənib hazırlanmışdır.

Hüquqi şəxs kimi sığortaçıların, sığorta brokerlərinin fəaliyyətinin lisenziyalaşdırılması prosesi iki mərhələdən ibarətdir: 1-ci mərhələ - hüquqi şəxsin qeydiyyatı üçün icazənin alınması; 2-ci mərhələ - sığorta (təkrar sığorta) və ya broker fəaliyyəti üçün lisenziyanın alınması.

Qeyd etmək lazımdır ki, hazırda fəaliyyətdə olan sığortaçılar üçün minimum nizamnamə kapitalının məbləği - 800000 manat, yeni yaradılan sığortaçılar üçün bu məbləğ - 1000000 manat, müvafiq olaraq fəaliyyətdə olan təkrar sığortaçılar üçün 1600000 manat, yeni yaradılan təkrar sığortaçılar üçün isə bu məbləğ - 2000000 manat müəyyən edilmişdir. Yaxın zamanlarda bu məbləğlərə yenidən baxılması gözlənilir.

Qeyd edək ki, Sovet imperiyası çökdükdən sonra Azərbaycanın sığorta bazarı xeyli inkişaf etmiş, hətta bir neçə il əvvəl Azərbaycandakı sığorta şirkətlərinin sayı 60-ı ötmüşdü. Hal-hazırda sığorta fəaliyyətini 46 sığorta şirkəti həyata keçirir. Onlardan yalnız biri dövlət şirkətidir, bəzilərini xarici şirkətlər maliyyələşdirir, digərləri isə yerli investisiya hesabına işləyir. Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətlərindən Xalq Sığorta, Atəşgah, Azal Sığorta, Beynəlxalq Sığorta Şirkəti, MBASK, A-Group, Ata Sığorta, Standart Insurance qabaqda irəliləyənlərdəndir. Son illərdə bu şirkətlərin yığdığı sığorta mükafatları stabil artım göstərir.

Müstəqil İnformasiya Agentliyinin xəbərinə görə Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətindən verilən məlumatlara əsasən Azərbaycanda fəaliyyət göstərən 46 sığorta şirkətinin sığorta haqları yığımı 2009-cu ilin yekunu üzrə təqribən 150 milyon manat təşkil etmişdir. Bu, 2008-ci ilin göstəricisindən 16,4 faiz azdır. Cədvəl 1-də bəzi şirkətlər üzrə sığorta ödənişləri və sığorta mükafatları haqqında son statistik məlumatlar verilmişdir.

«Sığorta haqqında» Azərbaycan Respublikası Qanunu çərçivəsində sığorta iki əsas sahədən-həyat və qeyri-həyat sığortası sahələrindən ibarətdir. Sığortaçılar bu sahələrdən yalnız biri və ya hər ikisi üzrə fəaliyyət göstərə bilərlər. Sığorta növləri həm könüllü, həm də icbari formada aparıla bilər. Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri son məlumatlara əsasən 44 növdən artıq könüllü və icbari sığorta növləri təklif edir. Bu sığorta şirkətlərindən 32-si könüllü, 12-si icbaridir.

Bu sığorta növlərinə əsasən həyat sığortası, qeyri-həyat sığortası, mülki məsuliyyətin sığortası, icbari sığorta, qarışıq maliyyə risklərinin sığortası, kredit sığortası aiddir [1]. 2009-cu il üzrə Azərbaycanda tətbiq olunan sığorta növləri, sığorta haqları və sığorta ödənişləri haqqında daha ətraflı məlumat cədvəl 2 və şəkil 1-də verilmişdir.

Cədvəl 1

**Sığorta şirkətləri üzrə 2009-cu ilin yanvar-sentyabr ayları ərzində daxil olmuş sığorta haqları və verilmiş sığorta ödənişləri**

| № | Sığorta Şirkətləri | Sığorta mükafatları (mln. man.) | Sığorta ödənişləri (mln. man.) |
|---|---|---|---|
| 1 | XalqSiğorta | 23,00 | 0,91 |
| 2 | AzerSiğorta | 19,64 | 9,91 |
| 3 | Azal Siğorta | 12,71 | 0,01 |
| 4 | Atəşgah | 10,09 | 3,04 |
| 5 | Beynəlxalq Sığorta Şirkəti | 10,06 | 3,13 |
| 6 | Paşa Siğorta | 8,25 | 1,38 |
| 7 | AzSiğorta | 8,00 | 3,18 |
| 8 | Standard Insurance | 6,17 | 2,74 |
| 9 | A-Group | 5,68 | 3,51 |
| 10 | MBASK | 5,29 | 4,78 |
| 11 | Azərbaycan Sənaye Sığorta | 3,11 | 0,33 |
| 12 | Bakı Sığorta | 2,96 | 1,00 |
| 13 | Qarant Sığorta | 2,38 | 0,14 |
| 14 | AtaSığorta | 2,18 | 0,41 |
| 15 | Rəvan Sığorta | 1,80 | 0,80 |
| 16 | Başak-İnam | 1,73 | 0,72 |
| 17 | AIG Kaspian İnsurance Company | 1,41 | 0,55 |
| 18 | Günay Anadolu Sığorta | 1,33 | 0,15 |
| 19 | Era Trans Sığorta | 0,97 | 0,42 |
| 20 | BE&G | 0,76 | 0,37 |
| 21 | Alfa | 0,75 | 0,18 |
| 22 | Temz Sığorta Qrupu | 0,57 | 0,14 |
| 23 | Fidan Sığorta | 0,45 | 0,23 |
| 24 | Azərqarant Sığorta | 0,39 | 0,07 |
| 25 | Atəşgah Həyat | 0,20 | 0,00 |
| 26 | Əmrah Sığorta | 0,16 | 0,12 |
| 27 | Qala | 0,07 | 0,00 |
| 28 | Az İnvest Sığorta | 0,07 | - |
| | **CƏMİ:** | **130,18** | **38,22** |

*Mənbə: Maliyyə Nazirliyinin məlumatları[9]*

Cədvəl 2

## 2009-cu il üzrədaxil olmuş sığorta haqları və verilmiş sığorta ödənişləri haqqında məlumat

| **Sığortanın sinifləri** | **Sığorta haqları (min.manat)** | **Sığorta ödənişləri (min.manat)** |
|---|---|---|
| **Həyat sığortası** | **598,25** | **342,67** |
| *o cümlədən* : | | |
| həyatın ölüm halından sığortası | 317,34 | 152,51 |
| həyatın yaşam sığortası | 280,91 | 190,16 |
| Annuitet sığortası | | |
| əmək qabiliyyətinin sığortası | | |
| sağalmaz xəstəliklərdən sığorta | | |
| **Qeyri-həyat sığortası** | **107 888,60** | **29 607,25** |
| *o cümlədən :* | | |
| Şəxsi sığorta | 21 263,31 | 11 491,36 |
| o cümlədən : | | |
| fərdi qəza və xəstəlik səğortası | 3 734,25 | 1 409,73 |
| tibbi sığorta | 16 737,80 | 9 966,19 |
| şəxsi sığortaya aid olan digər siniflər | 791,26 | 115,44 |
| Əmlak sığortası | 86 625,29 | 18 115,89 |
| o cümlədən : | | |
| əmlakın sığortası | 60 332,15 | 17 209,95 |
| o cümlədən : | | |
| əmlakın yanğından və digər risklərdən sığortası | 11 167,60 | 3 931,35 |
| avtonəqliyyat vasitələrinin sığortası | 23 672,02 | 12 357,20 |
| dəmiryol nəqliyyatı vasitələrinin sığortası | 38,70 | |
| hava nəqliyyatı vasitələrinin sığortası | 10 147,22 | 126,75 |
| su nəqliyyat vasitələrinin kasko sığortası | 1 451,78 | |
| yüklərin (nəqliyyat) sığortası | 5 204,87 | 459,77 |
| əmlakın sığortası ilə bağlı digər siniflər | 8 649,96 | 334,88 |
| **mülki məsuliyyətin sığortası** | **25 750,44** | **633,89** |
| *o cümlədən :* | | |
| avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 820,04 | 47,81 |
| dəmiryol nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | | |
| hava nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | 3 273,34 | |
| su nəqliyyatı vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası | | |
| yük daşıyanın mülki məsuliyyətinin sığortası | | |
| mülki-hüquqi müqavilə üzrə mülki məsuliyyətin sığortası | 86,23 | 1,81 |
| peşə məsuliyyətinin sığortası | 43,47 | |
| işəgötürənin məsuliyyət sığortası | 1 037,82 | 46,57 |
| Ümumi mülki məsuliyyətin sığortası | 20 489,54 | 537,70 |
| **kredit sığortası** | **537,04** | **272,05** |
| *o cümlədən :* | | |
| Kreditlərin sığortası | 331,30 | 272,05 |
| Ipoteka sığortası | 205,74 | |
| Kreditlərin sığortası üzrə digər siniflər | | |
| **Qarışıq maliyyə risklərinin sığortası** | **5,66 0,00** | |

| | | |
|---|---|---|
| *o cümlədən :* | | |
| əmlakın bazar qiymətinin düşməsi riskindən sığorta | | |
| işin dayanması ilə bağlı risklərdən sığorta | 5,66 | |
| **İcbari sığorta** | **21 693,97** | **8 274,08** |
| *o cümlədən :* | | |
| nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası | 2 524,61 | 559,04 |
| sərnişinlərin icbari sığortası | 654,03 | 0,02 |
| icbari ekoloji sığortası | 50,45 | 0,44 |
| yanğından icbari sığorta | 2 691,95 | 32,12 |
| MM deputatların icbari şəxsi sığortası | 92,51 | |
| tibbi personalın AİDS-dən sığortası | | |
| hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası | 12 905,57 | 7 157,18 |
| məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası | 2 616,51 | 509,02 |
| dövlət qulluqçuların icbari sığortası | 140,54 | 16,26 |
| diplomatik nümayəndələrin icbari sığortası | 9,29 | |
| auditorların peşə məsuliyyətinin icbari sığortası | 8,51 | |
| icbari sığortanın digər növləri | | |
| **Y E K U N** | **130 180,82** | **38 224,00** |

*Mənbə: Maliyyə Nazirliyinin məlumatları*




**Şəkil 1.** Şirkətlər üzrə sığorta haqları və sığorta ödənişləri – 2008-ci il.

2002-ci, 2003-cü, 2004-cü və 2009-cu illər üzrə apardığımız təhlil bəzi sığorta növləri üzrə inkişaf tendensiyasını müşahidə etmək imkanı verir. Belə ki, yanğın sığortası üzrə 2002-ci ildə toplanmış sığorta haqları 1740,0 min.manat, 2003-cü ildə 2234,0 min.manat, 2004-cü ildə 1526,4 min.manat və 2009-cu ildə 11167,6 min.manat olmuşdur ki, bu da 2002-ci illə müqayisədə 9427,6 min.manat artım təşkil etmişdir. Müvafiq olaraq, 2002-ci illə müqayisədə artım könüllü tibbi sığorta üzrə 16499,8 min.manat, həyat sığortası üzrə 526,25 min.manat, nəqliyyat vasitələrinin sahiblərinin mülki məsuliyyət sığortası üzrə 660,04 min.manat olmuşdur.

Cədvəl 3

**Bəzi sığorta növlərinə uyğun toplanmış sığorta haqları**

| Sığorta növü | Toplanmış sığorta haqları (min.manatla) | | | |
|---|---|---|---|---|
| | 2002 | 2003 | 2004 | 2009 |
| Yanğın sığortası | 1740,0 | 2234,0 | 1526,4 | 11167,6 |
| Könüllü tibbi sığorta | 238,0 | 386,6 | 540,6 | 16737,8 |
| Həyat sığortası | 72,0 | 137,8 | 177,8 | 598,25 |
| Nəqliyyat vasitələrinin sahiblərinin mülki məsuliyyət sığortası | 160,0 | 182,8 | 203,0 | 820,04 |

*Mənbə: Maliyyə Nazirliyinin məlumatları[9]*

Ümumiyyətlə, 2007-ci ildə sığorta mükafatlarının məbləği 148 milyon manat olmuşdur. 2007-ci ildə sığorta mükafatlarının strukturunda qeyri-həyat sığortasının payı - 98,9%, həyat sığortasının payı - 1,1-dir. Eyni zamanda sığorta mükafatlarının quruluşunda könüllü sığortanın payı - 90,7%, icbari sığortanın payı isə - 9,3% təşkil etmişdir.

2007-ci ildə sığorta növlərinə görə sığorta mükafatlarının strukturu aşağıdakı kimi olmuşdur: avtonəqliyyat vasitələrinin sığortası: 26%, məsuliyyət sığortası - 22%, əmlak sığortası; 12%, icbari dövlət sığortası - 11%, tibbi sığorta; 9%, yüklər sığortası - 5%, bədbəxt hadisələrdən sığortalanma - 5%, həyat sığortası; 3% 2007ci ildə sığorta mükafatlarının artım sürəti 64%, son beş ildə isə 30% və s. təşkil etmişdir. Sığorta işində mühüm məsələlərdən biri «Sığorta daxılı»nın yaradılmasıdır. «Sığorta daxılı»-müəyyən risklərin birgə sığortalaması üçün sığorta şirkətlərinin birliyidir. «Sığorta daxılı» əsasən təhlükəli, iri və təcrübədə yeni olan risklərin sığortaya qəbul edilməsi zamanı yaradılır.

Azərbaycan sığorta bazarının gələcək inkişafı üçün sığortanın icbari növləri üzrə qanunvericiliyin təkmilləşdirilməsi, sığorta şirkətləri üçün ixtisaslı aktuarilərin hazırlanmasının təmin edilməsi, sığorta məsələlərində əhalinin maarifləndirilməsinin, eləcə də sığorta xidmətləri üzrə istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi böyük əhəmiyyət kəsb edir.

Hazırda respublikada əmlakın sığortalanması üzrə sığorta daxili fəaliyyət göstərir. Gələcəkdə sığortanın digər növləri üzrə sığorta daxilinin yaradılması üzrə işlər davam etdiriləcəkdir.

Ümumiyyətlə, Azərbaycanda sığorta biznesi nikbin qiymətləndirilir. Azərbaycanın sığorta bazarı yaxın illərdə respublika iqtisadiyyatında mühüm yer tutacaqdır.

## ƏDƏBİYYAT


1. Sığorta bələdçisi. Bakı: Çaşıoğlu, 2008, 40 s.
2. Xankişiyev B. Sığorta fəaliyyətinin əsasları. Dərs vəsaiti. Bakı: İqtisad Universiteti, 2006, 274 s.
3. Сплетухов Ю.А., Дюжиков Е.Ф. Страхование: учебное пособие. М.: ИНФРА-М, 2005, 210 s.
4. Адамчук Н.Г., Асабина С.Н., Турбина К.Е. и другие. Теория и практика страхования: учебное пособие. М.: АНКИЛ, 2003, 189 с.

5. Xudiyev N.N. Sığorta işi. Bakı: Azərnəşr, 2003, 192 s.
6.“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. 2007 dekabr.
7.“Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi Fərmanlarına dəyişikliklər edilməsi və bəzi Fərmanlarının və Sərəncamlarının qüvvədən düşmüş hesab edilməsi barədə Azərbaycan Respublikasi Prezidentinin Fərmanı. Bakı, 2008, 12 sentyabr.
8.“Sığorta”, Azərbaycan Respublikasının sığorta sahəsini tənzimləyən normativ hüquqi aktlar toplusu, Bakı: Azərnəşr, 2005.
9. www.maliyye.gov.az

## СТАТИСТИЧЕСКИЙ АНАЛИЗ НАПРАВЛЕНИЙ РАЗВИТИЯ СТРАХОВОГО РЫНКА АЗЕРБАЙДЖАНА

**Н.С.АЙЙУБОВА, Н.Р.ДЖАЛИЛОВА**

### РЕЗЮМЕ

Усовершенствование законодательства по обязательным видам страхования, обеспечение подготовки квалифицированных актуариев, просвещение населения в вопросах страхования, а также обеспечение прав потребителей по услугам страхования носит огромную значимость для дальнейшего развития страхового рынка Азербайджана.

В статье авторы, с целью оценки сегодняшнего положения страхового рынка Азербайджана и формирования перспективных направлений развития, рассматривают нормативно-правовую базу этой области и на основе данных официальных государственных структур проводят статистический анализ.

## THE STATISTICAL ANALYSIS OF DEVELOPMENT DIRECTIONS OF INSURANCE MARKET IN AZERBAIJAN

**N.S.AYYUBOVA, N.R.JALILOVA**

### SUMMARY

The improvement of legislation by the obligatory kinds of insurance, providing the preparation of qualified actuaries, enlightening population about the questions of insurance and securing consumer laws in services of insurance are of great importance for the future development of insurance market in Azerbaijan.

The authors of the article «The statistical analysis of development directions of insurance market in Azerbaijan», with the purpose of appreciating today's position of insurance market in Azerbaijan and establishing perspective directions of development, consider the normative-legal basis of this sphere and carry out the statistical analysis on the ground of data of official state institutions.